

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (23.683)

*2 mart 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 1-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunan yeni inzibati binanın açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Yeni inzibati bina ilə tanış olan dövlətimizin başçısına məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Bakı gəmiqayırma zavodunda "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması və eyni təyinatlı "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər. Prezident İlham Əliyev "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınmasını bildirən düyməni basıb. Birinci xanım Mehriban Əliyeva gəminin suya salınmasını bildirən rəmzi lenti kəsib. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" və "Azərbaycan" gəmi-bərələri barədə məlumat verilib. Prezident İlham Əliyev "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsini bildirən düyməni basıb.

* * *

Martın 1-də Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub. Dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.



## Naxçıvanda sahibkarlarla işgüzar tədbir keçirilib






Fevralın 27-də Naxçıvan Biznes Mərkəzində keçirilən tədbirdə Ali Məclisin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və özəl bölməyə qayğı ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu iqtisadi inkişaf strategiyasının əsas istiqamətidir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu yolun uğurla davam etdirilməsi Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Muxtar respublikada özəl bölməyə dövlət dəstəyi artırılmış, biznes subyektlərinin qeydiyyat və lisenziya sistemi sadələşdirilmiş, əlverişli investisiya mühiti yaradılmışdır. Hazırda muxtar respublikada ümumi daxili məhsul istehsalının 88 faizi özəl bölmənin payına düşür.



Ali Məclisin Sədri demişdir: Sahibkarlığın inkişafında başlıca hədəf sosial-iqtisadi səmərəlilikdir. Son illər muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait iqtisadiyyatın dinamik inkişafını təmin etməklə yanaşı, iş yerləri də açılmış, əhalinin məşğulluğu və rifahı yüksəlmişdir. Hazırda muxtar respublikada məşğul əhalinin 85 faizi özəl sektorda çalışır, istehsal edilən sənaye məhsulunun 93 faizini özəl bölmə təşkil edir. Kənd təsərrüfatı olmadan nə sahibkarlığın inkişafına, nə də ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olmaq mümkündür. Ona görə də muxtar respublikada aqrar sahənin inkişafı diqqətdə saxlanılır, torpaq mülkiyyətçiləri və fermerlər müasir texnika və texnoloji avadanlıqlarla, mineral gübrələrlə təchiz edilir, subsidiya və güzəştli kreditlər verilir, aqrar sığorta sistemi tətbiq olunur. Artıq muxtar respublikada aqrar sahədə məhsul istehsalının 100 faizə yaxını özəl mülkiyyətə əsaslanır.

Qeyd olunmuşdur ki, özəl bölmənin inkişafını stimullaşdıran başlıca amillərdən biri də sahibkarlıq subyektlərinin əlverişli maliyyə resurslarına çıxışının təmin edilməsidir. Bu gün təsərrüfatçılıq fəaliyyəti üzrə banklar tərəfindən verilən kreditlərin ən aşağı orta faiz dərəcəsi muxtar respublikada tətbiq edilir. 2020-ci ildə muxtar respublikada sahibkarlara 37 milyon manatdan artıq kredit verilmiş, 138 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Həmçinin pandemiya halını alan virusun muxtar respublikada yaratdığı çətinliklərin aradan qaldırılması məqsədilə sahibkarlıq subyektlərinə 7 milyon 279 min manat maliyyə yardımı göstərilmişdir. Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi kiçik və orta sahibkarlığın inkişafına, ən əsası isə özünüməşğulluğun təmin olunmasına və yerli istehsalın artmasına şərait yaratmışdır. Hazırda muxtar respublikada mindən artıq iri ailə təsərrüfatı fəaliyyət göstərir. Özünüməşğulluq tədbirləri sırasında aztəminatlı ailələrin aktiv əməyə cəlbi də xüsusi yer tutur, bu kateqoriyadan olan ailələrə dəstək verilir. Muxtar respublikada iqtisadiyyatın bütün sahələri ilə yanaşı, xidmət sektorunda da sahibkarlıq fəaliyyəti genişlənmişdir. Aparılan kompleks quruculuq işləri, müasir yol-nəqliyyat infrastrukturunun formalaşması, yerli istehsalın artması, ən əsası isə sabitlik turizm sektorunun inkişafına və bu sahədə sahibkarlıq fəaliyyətinin genişlənməsinə səbəb olmuşdur.

Ölkə Prezidenti demişdir: ***"Bizim fəaliyyətimizin əsas istiqamətləri daxili tələbatı daxili istehsal hesabına ödəməkdən və ixrac potensialımızı artırmaqdan ibarətdir".*** Muxtar respublikada sahibkarlığın bütün parametrlər üzrə inkişafı yerli istehsalın həcminin artmasına və xarici ticarət əlaqələrinin genişlənməsinə töhfə vermiş, ixracyönümlü məhsul istehsalına nail olunmuşdur. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Dünyanın 72 ölkəsi ilə ticarət əlaqələri olan muxtar respublikada 11 ildir ki, xarici ticarət əlaqələrində müsbət saldo qeydə alınır. Sadalanan uğurlar bir daha təsdiq edir ki, muxtar respublikada dövlətin sahibkarlar üçün yaratdığı şərait, eyni zamanda sahibkarların göstərilən qayğıdan düzgün istifadəsi ümumi inkişafı təmin etmişdir.



Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın təmin olunmasında və özəl bölmədə uğurlu nəticələrin qazanılmasında əməyi olanlara, eləcə də bütün sahibkarlara təşəkkürünü bildirmişdir.

"Muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün bütün imkanlar mövcuddur. Bu imkanlardan səmərəli istifadə etmək,

*Ardı 2-ci səhifədə*







daha yüksək nəticələrə nail olmaq isə həm dövlət orqanlarını, həm də sahibkarları daim düşündürməli, muxtar respublikanın iqtisadi və investisiya imkanlarından səmərəli istifadə olunmalıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, İqtisadiyyat Nazirliyi və Sahibkarlar Konfederasiyası yeni istehsal sahələrinin yaradılması ilə bağlı təkliflər verərkən daxili bazarın tələbatını və ixrac imkanlarını təhlil etməli, düzgün biznes-planlar tərtib olunmalı, müəssisələrin rentabellik göstəriciləri dəqiq müəyyənləşdirilməlidir. Kiçik və orta sahibkarlığın inkişaf istiqamətləri araşdırılmalı, rayonların sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla yerli resurslara əsaslanan istehsal və xidmət sahələri yaradılmalı, ailə təsərrüfatlarının fəaliyyətinə dəstək verilməlidir. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Sahibkarlığın İnkişafı Fondu kreditlər verilərkən ehtiyac meyarlarını düzgün qiymətləndirməli, maliyyə riskləri ciddi şəkildə araşdırılmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi özünüməşğulluq proqramı çərçivəsində aztəminatlı ailələrin məşğulluğu ilə bağlı işləri davam etdirməli, sahibkarlıq müəssisələrində əməyin mühafizəsi qaydalarına nəzarət olunmalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada müasir texnologiyalara əsaslanan və yerli xammalla işləyən istehsal sahələrinin yaradılması işin bir tərəfidir. Əsas məsələ isə keyfiyyətli məhsul istehsal etməkdir. Hər bir sahibkar kəmiyyətdən daha çox keyfiyyət barədə düşünməlidir. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti də keyfiyyətə nəzarəti gücləndirməli, rəqabətədavamlı məhsul istehsalına nail olunmalıdır. Dövlət Gömrük Komitəsi ixracyönümlü məhsul istehsal edən sahibkarlar üçün lazımi şərait yaratmalı, gömrük yoxlamaları sadələşdirilməli, elektron xidmətlərə üstünlük verilməlidir. Sahibkarlıq subyektləri də öz məhsullarının daxili bazarla yanaşı, muxtar respublikadan kənarda da satışına çalışmalı, marketinq araşdırmaları aparmalıdırlar. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri aqrar sahədə sahibkarlıq fəaliyyətinin genişlənməsinə diqqəti artırmalı, yarmarkalar davam etdirilməlidir.

Qeyd olunmuşdur ki, 2020-ci il muxtar respublikada "İxrac ili" elan olunsa da, pandemiya ilə bağlı məhdudiyyətlər qarşıya qoyulan vəzifələrin tam icrasına imkan vermədi. Ona görə də 2021-ci il muxtar respublikada "İxrac ili" kimi saxlanılır.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***həqiqi sahibkar olmaq üçün, birinci növbədə, gərək yaxşı iş qurasan, ikinci növbədə, gərək sahibkar kimi ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərəsən, öz nüfuzunu, hörmətini və imicini daim qoruyasan.*** Dahi şəxsiyyətin tövsiyələri hər bir sahibkar üçün əsas fəaliyyət istiqamətidir. Dövlətimiz üzərinə düşən vəzifələri yerinə yetirir. Sahibkarlar da dövlət qarşısında öhdəliklərinə əməl etməli, istehsal və xidmət müəssisələrində təhlükəsiz və sağlam əmək şəraiti yaradılmalı, mövcud imkanlar düzgün qiymətləndirilməli və ümumi inkişafa töhfə verilməlidir.

Ali Məclisin Sədri bu yolda sahibkarlara uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, iqtisadi sahədə qazanılan uğurlar muxtar respublikada makroiqtisadi göstəricilərin həcminin artmasına müsbət təsir göstərmiş, ötən il ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,6 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 59,3 faiz təşkil etmişdir. 2020-ci ildə sənaye məhsulunun həcmi artaraq 1 milyard 40 milyon manatdan artıq olmuş, sənayedə özəl sektorun payı isə 93 faiz təşkil etmişdir. Tapdıq Əliyev özəl sektorun inkişafına göstərdiyi diqqət və qayğıya görə muxtar respublika sahibkarları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev demişdir ki, Naxçıvan Muxtar Respublikasında özünüməşğulluq proqramının uğurlu icrası nəticəsində sosial qayğıya ehtiyacı olan ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına hərtərəfli şərait yaratmışdır. Proqramın icrası nəticəsində 2017-ci ilin iyun ayından başlayaraq bu günədək muxtar respublika üzrə 2834 nəfər ailə üzvü olan 622 ailənin özünüməşğulluğu təmin edilmiş və proqramın icrası üçün 2 milyon 289 min manatdan artıq vəsait sərf olunmuşdur. Proqrama cəlb olunmuş 555 ailəyə heyvandarlıq, 67 ailəyə isə xidmət, istehsal və digər sahələr üzrə aktivlər verilmişdir. O cümlədən 622 sosial qayğıya ehtiyacı olan ailədən 164-nə verilən aktivlər müqavilədə göstərilən müddət bitdiyi üçün akt əsasında onların mülkiyyətinə keçirilmişdir. Ötən dövrdə 20 ailəyə 47 min manat dəyərində əlavə həvəsləndirici aqreqatlar verilmişdir. 2020-ci ildə də 1289 nəfər ailə üzvü olan 291 ailə proqrama cəlb edilmiş, bu məqsədlə 1 milyon 207 min 784 manat vəsait sərf olunmuşdur. Proqramın cari il ərzində davam etdirilməsi məqsədilə 1 milyon 280 min manat vəsait ayrılmışdır ki, bu vəsaitlə, təqribən, 400-ə yaxın sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluq tədbirlərinə cəlb olunması nəzərdə tutulur. Ötən il də peşə hazırlığı və ixtisasartırma kurslarına cəlb diqqətdə saxlanılmış, Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan kurslarda, ümumilikdə, 374 nəfər iştirak etmiş, 1148 nəfər muxtar respublika ərazisində fəaliyyət göstərən müxtəlif sahibkarlıq müəssisələrində işlə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov bildirmişdir ki, 2006-cı ildən fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərir. Konfederasiya hazırda 33 üzvü özündə birləşdirir. Bu sahibkarlar arasında sənaye və ərzaq məhsulları, mebel və tikinti materialları istehsalı, tibb və ticarət xidmətləri üzrə geniş profildə fəaliyyət göstərən iş adamları vardır. Sahibkarlarımızın təşkil etdiyi ailə təsərrüfatları, arıçılar, quşçular və istixanaçılar birlikləri də, öz növbəsində, konfederasiya ilə sıx əlaqədədirlər. Ötən il bank və digər kredit təşkilatları tərəfindən yeni istehsal sahələrinin yaradılması və ya genişləndirilməsi məqsədilə 16 milyon 860 min, fərdi sahibkarlığın inkişafı məqsədilə isə 20 milyon 816 min manat kredit verilmiş, 37 hüquqi, 2 min 404 fiziki şəxs qeydiyyata alınmışdır. Artıq muxtar respublikada yaradılan istehsal müəssisələri daxili bazarı təmin etməklə yanaşı, xarici bazarlara məhsul ixrac etmək potensialına da malikdir. Ali Məclis Sədrinin tapşırığına




əsasən 2020-ci ildə muxtar respublikada pandemiyanın sahibkarlığa mənfi təsirini azaltmaq məqsədilə sahibkarlar üçün dəstək mexanizmləri işə salınmış və iqtisadi fəaliyyət sahələrinə müvafiq maliyyə yardımları göstərilmişdir. Vüqar Abbasov yaradılan şəraitə görə muxtar respublika sahibkarları adından minnətdarlıq etmişdir.

Ailə təsərrüfatı sahibi Tağı Tağıyev demişdir: 2011-ci ildə Şərur rayonunun Qarxun kəndində ailə təsərrüfatçısı kimi çörək istehsalı ilə məşğul olmağa başlamışıq. Şəxsi vəsaitimiz hesabına müəssisənin yaradılmasına 35 min manat vəsait sərf etmişik. Müəssisəmiz istehsala başlayan zaman gündəlik çörək istehsalı 90 kiloqram idisə, sonradan artan tələbatı ödəmək məqsədilə fəaliyyətimizi genişləndirərək istehsal gücünü gündəlik 120 kiloqrama çatdırdıq. Fəaliyyətimizin genişləndirilməsi, yeni texnologiyalara əsaslanan avadanlıqların alınması və rəqabətqabiliyyətli məhsul istehsal edilməsi məqsədilə ümumi dəyəri 65 min manat olan layihə hazırlamışıq. Avadanlıqların alınması üçün müqavilə əsasında ilkin olaraq 25 min manat daxili imkanlarımız hesabına ödənilmişdir. Hazırlanmış layihənin reallaşdırılması məqsədilə Sahibkarlığın İnkişafı Fonduna 40 min manat maliyyə dəstəyinin göstərilməsi üçün müraciət etmişik. Müəssisənin istehsal gücü saatda 120 kiloqram lavaş istehsalından 900 kiloqrama çatdırılacaqdır ki, bu da kəndin və yaxın yaşayış məntəqələrinin əhalisinin bu məhsula olan tələbatını ödəyəcəkdir. İstehsal sahəsi ilə yanaşı, burada 90 kvadratmetr həcmində hazır məhsul, xammal anbarı yaradılmışdır. Təsərrüfatımızda ailə üzvlərimizlə yanaşı, 4 nəfər də daimi işlə təmin edilmişdir. Çörək istehsalı ilə yanaşı, pay torpağımızda əkdiyimiz kartof, soğan və digər kənd təsərrüfatı məhsullarının saxlanılması məqsədilə ümumi tutumu 40 ton olan soyuducu anbar da yaratmışıq. Ali Məclis Sədrinin muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətinə göstərdiyi qayğıdan bəhrələnərək kiçik sahibkara çevrilmişəm. Tağı Tağıyev ailə təsərrüfatçılarına göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Sahibkarlar Konfederasiyası bu il də ailə təsərrüfatlarının inkişaf etdirilməsinə, özünüməşğulluğun təmin olunmasına və yerli xammala əsaslanan istehsal müəssisələrinin qurulmasına üstünlük verməlidirlər. Mövcud potensialdan, yerli resurslardan tam gücü ilə istifadə olunmalıdır. Qarşıya məqsəd qoyulmalıdır ki, ixracyönümlü məhsulların istehsalı artırılsın, xarici bazarlara çıxış əldə edilsin. İş adamları da yeni layihələr hazırlayıb təqdim etməli, məhsul istehsalı və satışı əvvəlcədən müəyyənləşdirilməlidir. Naxçıvanda kifayət qədər məhsul istehsal olunur. Lakin əsas vəzifə ixracyönümlü məhsul istehsalının artırılmasıdır.

Ali Məclisin Sədri demişdir: 2020-ci il ölkəmizin tarixinə Zəfər ili kimi daxil oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz işğal altında olan torpaqlarımızı azad etdi. Ölkə rəhbəri həmin torpaqlarda geniş quruculuq işlərinin aparıldığını elan edib. Aid qurumlar və Sahibkarlar Konfederasiyası iş adamları ilə birgə orada fəaliyyət göstərən şirkətlərlə əlaqə yaratmalı, öz məhsullarını və xidmətlərini təklif etməli, logistik mərkəzin qurulmasına səy göstərilməlidir.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 10 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər mebel və çörək istehsalı sahələrinin genişləndirilməsi və avadanlıqların alınması, arıçılıq təsərrüfatının genişləndirilməsi, eləcə də heyvandarlıq təsərrüfatının genişləndirilməsi və yaradılmasına sərf olunacaqdır.

Güzəştli kreditlə təmin olunanlardan Abbas Babayev minnətdarlıq edərək demişdir ki, muxtar respublikamızda sahibkarlara qayğı göstərilir. Ali Məclis Sədrinin iştirakı ilə keçirilən görüşlər, verilən tövsiyə və tapşırıqlar, təqdim olunan kreditlər fəaliyyətimizin genişləndirilməsinə, yeni istehsal sahələrinin və sahibkarlıq subyektlərinin yaradılmasına stimul verir. 20 il bundan əvvəl kiçik mebel müəssisəsi yaratmaqla sahibkarlıq fəaliyyətinə başlamışıq. Bizə göstərilən qayğı nəticəsində müəssisəmizin fəaliyyəti xeyli genişlənmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən filmə baxış olmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri, müəssisələr, istehsal olunan məhsullardan ibarət sərgiyə və Naxçıvan Avtomobil Zavodunun istehsalı olan yeni model avtomobillərə baxmışdır.

Qeyd olunmuşdur ki, mərkəzdə muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrinə aid stendlər, bölmələrdə istehsal olunan məhsullar və ya onların fotoşəkilləri, eləcə də muxtar respublikanın sənaye və kənd təsərrüfatı sahələri xəritəsi qoyulmuşdur. Burada muxtar respublikada fəaliyyət göstərən 78 müəssisənin 166 növdə 1293 çeşiddə, eləcə də 86 ailə təsərrüfatının 25 növdə 162 çeşiddə məhsulu nümayiş olunur. Həmçinin mərkəzdə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2020-ci ildə istehsalına başlanılan məhsulları da sərgilənir.

Ali Məclisin Sədri muxtar respublikada istehsal olunan məhsulların çeşidinin, keyfiyyətinin və ixrac imkanlarının artırılması, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, daxili bazarın qorunması, Naxçıvan Avtomobil Zavodunda çeşidlərin artırılması barədə tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

# Naxçıvanda plastik kapsul və qapaq istehsalı sahəsinin fəaliyyəti genişləndirilir





"Gəmiqaya Plastmas Kapsul və Qapaq" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni istehsal xətti fəaliyyətə başlamışdır.

Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev demişdir ki, bu gün fəaliyyəti genişləndirilən "Gəmiqaya Plastmas Kapsul və Qapaq" Məhdud Məsuliyyətli Cəmiyyəti sahibkarlığın inkişafı, istehsalçıların fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter almasının əyani ifadəsidir. Müəssisədə istehsal ediləcək yeni çeşiddə plastmas kapsul və qapaq istehsalı daxili bazarda tələbatın yerli və keyfiyyətli məhsullar hesabına ödənilməsinə imkan yaradacaqdır. Yeni istehsal xəttinin istifadəyə verilməsi ilə müəssisə tərəfindən istehsal olunacaq plastmas kapsul çeşidi 12-yə, qapaq çeşidi 4-ə çatdırılacaq, qulp istehsalı isə 1 çeşiddə həyata keçiriləcəkdir. İstehsal sahəsi ilə yanaşı, burada hazır məhsul, xammal anbarı və digər xidmət sahələri də yaradılmışdır. Müasir tələblərə cavab verən tam avtomatlaşdırılmış plastmas kapsul və qapaq istehsalı müəssisəsi əhalinin məşğulluğunun təmin olunmasına da müsbət təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün istifadəyə verilən müəssisə muxtar respublika üçün çox əhəmiyyətlidir. Ona görə ki, muxtar respublika ərazisi mineral sularla zəngindir. Eyni zamanda maye şəklində istehsal olunan bir sıra məhsullar vardır ki, bu müəssisədə istehsal olunan taralara ehtiyacı vardır. 2020-ci ildə "Sirab" Mineral Sular Zavodunda 29, "Badamlı" Mineral Sular Zavodunda isə 16 milyon litrə yaxın su qablaşdırılıb satışa verilmişdir. Onların 60 faizə yaxını bu gün istifadəyə verilən müəssisənin istehsal edəcəyi 5, 10, 19 litrlik taralarda satışa çıxarılmışdır. Ötən il muxtar respublikaya 3 milyona yaxın belə tara idxal hesabına gətirilmişdir. Lakin bu gündən etibarən muxtar respublikada bu cür taralara olan ehtiyac yerli istehsal hesabına ödəniləcək, hətta böyük ixrac imkanları da yaranacaqdır.

Ali Məclisin Sədri müəssisənin yeni istehsal xəttini işə salmışdır.

Məlumat verilmişdir ki, 2019-cu ildə müəssisədə 0,33, 0,5, 1, 1,5 litr olmaqla, 4 çeşiddə plastmas kapsul və 1 çeşiddə qapaq istehsalı sahəsi istifadəyə verilmiş, yaradılmış istehsal xətti hesabına bu məhsullara olan tələbat 100 faiz ödənilmişdir. 2020-ci ildə müəssisədə 5, 10, 19 litr olmaqla, 3 yeni çeşiddə plastmas kapsul, 5-10, 19 litr üçün 2 çeşiddə qapaq, 5-10 litr üçün 1 çeşiddə qulp istehsalı xətti yaradılmışdır. Yeni istehsal sahəsinin yaradılmasına 3 milyon 200 min manatı Sahibkarlığın İnkişafı Fondu, 2 milyon 920 min manatı isə müəssisənin daxili imkanları hesabına olmaqla, ümumilikdə, 6 milyon 120 min manat vəsait sərf olunmuşdur.

Müəssisədə Kanada istehsalı olan "HUSKY" markalı yeni avadanlıq quraşdırılmış, Türkiyə və Cənubi Koreyadan xammal alınmışdır. Yeni istehsal xəttinin gücü ildə 15 milyon 840 min kapsul və 18 milyon 480 min qapaq istehsal etməyə imkan verir. Ötən il muxtar respublikada 5, 10, 19 litr çeşiddə olan məhsullara tələbat 2,5-3 milyon ədəd olmuşdur. Yeni istehsal xəttinin istifadəyə verilməsi ilə tələbat 100 faiz yerli imkanlar hesabına ödəniləcək, eləcə də ixrac imkanı yaranacaqdır. İstehsal xəttinin yaradılması ilə 8 yeni iş yeri açılmışdır.

Müəssisənin laboratoriyasında məhsulların keyfiyyətinə daim nəzarət olunur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan-BMT əlaqələri uğurla inkişaf edir

*Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı çoxsaylı ölkələri özündə birləşdirir. Azərbaycan 1992-ci il martın 2-də bu təşkilata üzv seçilmişdir. Sayca qurumun 181-ci üzvü olan ölkəmizin dövlət bayrağı həmin gün Nyu-Yorkda qaldırılmış, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. Bu, Azərbaycan xalqının müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi olaraq tanınması demək idi. Ümummilli liderimiz Heydər Əliyev BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdə bu məsələ ilə bağlı demişdir:* ***"Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik".***

Ölkəmiz BMT-yə 1992-ci ildən üzv olsa da, bu sahədə uğurlu əməkdaşlığın əsası bir il sonra – xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə qoyulmuşdur. BMT ilə əlaqələrin sistemli şəkildə qurulması bu nüfuzlu qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək mümkün olmuşdur. Məhz Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ulu öndər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir. Ölkəmizin təşəbbüsləri nəticəsində BMT-nin Təhlükəsizlik Şurası keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmiş və bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını bir daha təsdiq edərək işğalçı qüvvələrin ölkə ərazisindən dərhal çıxarılması tələbini irəli sürmüşdür.

Görkəmli dövlət xadimi tərəfindən əsası qoyulan xarici siyasət kursunu layiqincə davam etdirən ölkə başçısı cənab İlham Əliyev BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin hələ də yerinə yetirilmədiyini vurğulayaraq onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını irəli sürmüşdür. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra Baş Məclisin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasının gündəliyində 20-ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək vermiş, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Dövlət başçısı 2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərək təşkilatın üzvlərinin diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəltmişdir. Ölkə rəhbəri Ermənistanın münaqişə zamanı çox ağır beynəlxalq cinayətlər törətdiyini, Azərbaycan ərazilərinin 20 faizini işğal etdiyini, işğal zamanı xalqımıza məxsus tarixi və mədəni abidələrin vəhşicəsinə dağıdıldığını bildirmişdir. BMT Baş Assambleyasının 2017-ci il sentyabrın 20-də Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında dövlət başçısının dərinməzmunlu çıxışı da xarici siyasət sahəsində dövlətimizin qəti mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdirmişdir.

Lakin təəssüflər olsun ki, dünya ölkələrini bir çətir altında birləşdirən BMT kimi nüfuzlu təşkilatın qəbul etdiyi qətnamələr ikili standartlar səbəbindən uzun illər yerinə yetirilməmişdir. Yalnız 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində ölkəmiz işğal olunmuş ərazilərini ordusunun gücü ilə azad edərək həmin qətnamələrin yerinə yetirilməsini praktik olaraq özü icra etmiş, Azərbaycanın daim dünya ölkələri ilə sülh və dostluq şəraitində əməkdaşlığa böyük önəm verdiyini təsdiqləmişdir. 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında müharibənin başlanmasından bir müddət sonra BMT-nin Təhlükəsizlik Şurasında bəzi dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanatın qəbul edilməsinə nail olmaq istəyərkən, Britaniyanın BMT Təhlükəsizlik Şurasındakı Daimi Nümayəndəsi çevik və prinsipial mövqe nümayiş etdirərək ədalətin bərqərar olmasına kömək etmişdir.

Ümumilikdə, Azərbaycan həqiqətlərinin dünya birliyinə tanıdılmasında yüksək tribuna rolunu oynayan BMT ilə əlaqələrin inkişafında son onillikdə daha böyük uğurlar əldə olunmuşdur. 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2011-ci ilin oktyabrında keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürən Azərbaycanın 155 səs toplaması, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşməsi bunu bir daha təsdiq edir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biridir. Ölkəmiz 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik etmişdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olmuşdur. Bu gün Azərbaycan BMT-nin müxtəlif orqanları – Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Mübarizə Komitəsi, İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatı ilə əlaqələrini yüksək səviyyədə davam etdirir.

BMT ilə əlaqələr 2020-ci ildə də uğurla davam etdirilmişdir. 21 sentyabr 2020-ci il tarixində BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyev videoformatda çıxış etmişdir. Dövlət başçısı çıxışında BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırmış, təşkilatın qlobal iqtisadi idarəçilikdə rolunun gücləndirilməsini vurğulamışdır.

Dekabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti, Qoşulma Hərəkatının Sədri İlham Əliyevin təşəbbüsü ilə Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi – COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilmiş, Prezident İlham Əliyev sessiyada videoformatda çıxış etmişdir.

BMT-nin Naxçıvan Muxtar Respublikası ilə əlaqələri də davamlı xarakter daşıyır. 1997 və 2013-cü illərdə Birləşmiş Millətlər Təşkilatının nümayəndələri Naxçıvana səfər edərək burada görüşlər keçirmiş, muxtar respublikanın blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparmışlar. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə layihələri icra olunmuş, 2016-cı ildə Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı keçirilmiş, 2017-ci ilin oktyabrında Naxçıvan Biznes Mərkəzində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinin iştirakı ilə "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlim təşkil olunmuşdur. 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı missiyasını uğurla yerinə yetirməsi həm də BMT-nin dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə töhfə kimi dəyərləndirilmişdir. 2019-cu ildə isə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olmuşdur. Həmçinin Naxçıvan Biznes Mərkəzində əsas icraçı tərəfdaşı BMT-nin İnkişaf Proqramı olan və Avropa İttifaqının maliyyələşdirdiyi "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsinin konfransı keçirilmişdir. Ümumilikdə, indiyədək bu beynəlxalq qurum tərəfindən muxtar respublikada çoxsaylı layihələr təşkil olunmuşdur.

***Bu gün Azərbaycan bütün parametrlər üzrə Cənubi Qafqazın lider ölkəsidir. Azərbaycanın beynəlxalq şərq-qərb nəqliyyat və ticarət əlaqələrinin inkişafına, qlobal enerji bazarına, ekologiyanın qorunmasına, habelə terrorizmə, irqi və dini ayrı-seçkiliyə qarşı mübarizəyə verdiyi böyük töhfə onun BMT-də nüfuzlu ölkə kimi tanınmasını bir daha sübut edir.***

**"Şərq qapısı"**

*Xalq təqvimi*

## Mövsüm mərasimlərindən ikinci ilaxır çərşənbə – *Torpaq çərşənbəsi*

## *Torpağı ovuclayan qızıl ovuclar*



***Dünyanın yaranmasında əsas ünsür kimi keçən həftə qeyd etdiyimiz ilk çərşənbə – Su çərşənbəsi öz ardınca Torpaq çərşənbəsini "səsləyir". İkinci ilaxır çərşənbə torpağın oyanması, torpaqla bağlı təsərrüfat işlərinin başlanması ilə bağlı olaraq xalq təfəkküründə "Torpaq çərşənbəsi" adlanmaqdadır.***

Torpaq çərşənbəsində Azərbaycanda, o cümlədən muxtar respublikamızın şəhər və kəndlərində müxtəlif ayin və mərasimlərin icrası torpaq kultuna inamı əks etdirən mərasimlər kimi diqqət çəkir. Bu çərşənbəni el arasında "çilləbeçə çərşənbəsi" də adlandırırlar. Torpağı əkib-becərmək, ona qulluq etmək üçün bu çərşənbədə fəallıq daha da artır. Hamı öz həyət-bacasına, torpağa bağlılığını artırmaq məqsədilə əkin işlərini sürətləndirir. Naxçıvanda bu münasibətlə xalq arasında belə bir deyim formalaşmışdır ki, "Torpaq, ona olan qulluğun, hörmətin qarşılığını insana mütləq verəcəkdir". Bu deyim elə qədim türk mifizminin daşıyıcısı olan Naxçıvan mühitinin mifoloji dünyasında Torpaq əyəsinin varlığını, onun bir zamanlar kult səviyyəsində olmasını təsdiqləyir. İnsanlar torpağa qulluq etməklə özlərinin maddi təminatını da müəyyən qədər ödəmiş olduqlarını düşünürlər. Həm də torpaqla bağlılıqlarını, əməyə, zəhmətə olan sevgilərini folklor nümunələri şəklində yaradıb gələcək nəsillərə ötürürlər:

*Qarışqadan ibrət al,*
*Qış ikən yazı düşün.*

Torpaq çərşənbəsinin xarakterik ayinlərindən biri də Naxçıvanda evlərin həyətlərində tonqal qalanmasıdır. İnsanlar od üstündən tullanaraq ağırlığın, dərd-sərin köhnə ildə qalmağını arzulayarlar.

Naxçıvanda Torpaq çərşənbəsində icra olunan ayinlərdən biri də ağacqorxutma adətidir. Ev əhlinin ən yaşlı nümayəndəsi əlində balta bağa gələr, hər ağacın dibinə üç dəfə balta ilə vurar. Bu ayin vasitəsilə inanırlar ki, ağaclar "qorxaraq" növbəti ilə yaxşı bar verəcək. Naxçıvan Muxtar Respublikasının bəzi regionlarında bu ayini, əsasən, bar verməyən ağac üçün tətbiq edərlər. Əlində balta barsız ağaca yaxınlaşan insan baltanı ağacın dibinə yaxınlaşdıraraq deyir ki, əgər gələn il bar verməsən, səni kəsəcəyəm. Başqa biri isə baltanı onun əlindən alaraq onu dayandırmağa çalışır və deyir ki, dəymə, kəsmə, mən zamin, gələn il bar verəcək. Bu ayinin kökündə yenilənmə dayanır.

Naxçıvanda xalq yaddaşında belə bir inam dolaşmaqdadır ki, bir qarış yer var, onun da əyəsi var. Hər nəsnənin əyəsi olduğu kimi, torpağın da əyəsi var. Torpağa qulluqdan öncə gərək onun əyəsinə salam verəsən. Əgər salam verməsən, torpaq əyəsi səni cavabsız qoyar, yaxşı məhsul verməz. Bu inanclar torpağa tapınmanın izlərini özündə qoruyub saxlamaqla kosmoqonik görüşləri ifadə edir.

Bu baxımdan xalq arasında torpaqla, yerlə bağlı olan "Yerin yeddi qatından keçmək" ifadəsi də dolaşmaqdadır.

Torpaqla bağlı Naxçıvanda müxtəlif xalq yaradıcılığı nümunələri yaddaşlarda yaşamaqdadır ki, bunlardan sözün sehirli qüvvəsinə inamı xarakterizə edən alqışları diqqətinizə çatdırmaq istərdik:

*Torpağın bərəkətli olsun.*
*Torpağı sanı yaşıyasan!*
*Torpaq kimi bar-bəhrəli olasan!*
*Torpağından təzə-təzə nübarlar dadasan!*
*Torpağın rahat olsun!*
*Torpağı xəbər aparmasın! (dünyadan köçən biri haqqında danışarkən istifadə olunur).*

Bu nümunələrdən göründüyü kimi, torpaq qədim türklərdə insanı haqq dünyasına qovuşduran varlıq olmaqdan əlavə, insanın xilasına xidmət edən kult kimi də düşünülmüşdür. Torpaq müqəddəsliyi ilə həm insana həyat verər, həm də onu haqq dünyasında ağuşuna alar. Hər mənada torpaq insana hamidir.

Naxçıvan Muxtar Respublikasının bəzi bölgələrində xalq arasında torpağın müqəddəsliyini ifadə edən atalar sözü və məsəllər də yetərincədir:

*Torpaqda itki olmaz, kötüksüz bitki olmaz*
*Torpaq əkinçinin zəhməti ilə zinətlənər*
*Torpağa var versən, o da sənə bar verər*
*Sular hərəkətlidir, torpaq bərəkətli*
*Torpağı ovuclayan qızıl ovuclar*
*Torpağın üzü soyuq olar*
*Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör*
*Torpaqla oynayan ac qalmaz*
*Torpaqdan pay olmaz*

İcra olunan ayin və mərasimlər, eləcə də torpaq çərşənbəsi ilə əlaqəli yaddaşlarda qorunan inanc sınama örnəkləri ulu əcdadın erkən təsəvvürlərinin məhsulu kimi dəyərlidir. Bu örnəklər torpağın xalqın həyatındakı vacibliyini, əhəmiyyətini bədii və poetik şəkildə təsdiqləyir. Necə ki, babalarımız haqlı olaraq demişdilər: "Torpaqdan pay olmaz!". Biz də bu ulu vəsiyyətə sadiq qalaraq 30 il işğal altında olan torpaqlarımızı mənfur düşmənlərdən geri aldıq!

Bəli, uzun illərdir ki, düşmən tapdağında olan müqəddəs torpaqlarımız, nəhayət ki, Ali Baş Komandanımızın uğurlu siyasətinin, ordumuzun yenilməz gücünün və xalqımızın əbədi, tükənməz birliyinin sayəsində azad olundu. Biz bundan sonrakı, nəinki ilaxır çərşənbələri, hətta bütün milli və dini bayramlarımızı həmin müqəddəs torpaqlarımızda da qeyd edəcək, o torpaqlarımızın paklaşması, yenidən öz ruhuna qayıtması üçün çalışacağıq. Biz ürəyimizin o torpaqlarımızdan ötrü qübar etdiyi həmin 30 ildə hər zaman arzulamışıq: "Gün o gün olsun ki, müqəddəs torpaqlarımıza şərəflə geri dönək!" Bəli, gün o gündür! Gün o gündür ki, biz uğurlu siyasət və yenilməz ordunun sayəsində o torpaqlara geri dönməkdəyik! İndi o müqəddəs məkanların çiçəklənən vaxtıdır! Qəhrəman xalqımız builki torpaq çərşənbəsini öz ata-baba torpaqlarına sahib çıxmağın – Böyük Qələbənin sevincini yaşayaraq, torpaq uğrunda canlarından keçən igid, cəsur Vətən oğullarının müqəddəs ruhunu dərin hörmət və ehtiramla yad etməklə qeyd edir! Torpaqlarımızın bol ruzili-bərəkətli olması diləyi ilə.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

"Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirələrə və "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda bu sahənin inkişafı ilə bağlı qarşıya konkret məqsədlər qoyulub. Dövlət proqramına uyğun olaraq muxtar respublikaya təcrübəli məşqçilərin

## Məşqçilik kursunun son moduluna start verilib



dəvət edilməsi, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin təşkili Gənclər və İdman Nazirliyi ilə aidiyyəti qurumların diqqət mərkəzindədir. Son olaraq Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə "C" kateqoriyalı məşqçilik kursunun keçirilməsi bunun bariz nümunəsidir. Şərur Olimpiya İdman Kompleksində təşkil olunan kursun son mərhələsinə dünən start verilib.

AFFA-nın Məşqçilər şöbəsinin əməkdaşı, futbol üzrə milli komandamızın köməkçi məşqçisi Arif Əsədov, təlimatçılardan İlkin Hüseynov və İlham Əzizzadənin iştirakı ilə keçirilən kursun 3-cü modulunda muxtar respublikanın müxtəlif bölgələrindən 15 məşqçi iştirak edir. Bu modulda iştirakçılardan – gənc məşqçilərdən praktik, şifahi və yazılı imtahan götürüləcək. Yekunda imtahanda uğur qazanan iştirakçılar "C" kateqoriyası alacaqlar.

Naxçıvanda ilk dəfə təşkil olunan kursun sonuncu mərhələsində *Hakimlər Komitəsinin Təhsil şöbəsinin rəhbəri Anar Salmanov* da iştirak edir. Naxçıvana səfəri ilə bağlı Anar Salmanovun fikirlərini




öyrəndik: "Bundan öncə bir neçə dəfə Naxçıvan Muxtar Respublikasına səfərim olub. Hər dəfə hakimlərin hazırlıqları ilə bağlı səfərimdə gənc hakimlərə yeni qaydalar və təlimatlar barədə keçirilən seminarlarda məlumat vermişik. Bu dəfə gəlməyimin səbəbi isə Naxçıvanda təşkil olunan "C" kateqoriyalı məşqçi kursunda iştirak edən məşqçilərə qaydalar haqqında məlumat verməkdir. Həmçinin səfər zamanı burada hakimliklə məşğul olan referilərlə görüş keçirildi. Görüşün səbəbi ilk olaraq qaydalarda olan dəyişikliklər barədə məlumat vermək idi. Bununla yanaşı, videogörüntü vasitəsilə hakimlərə dəyişiklikləri də izah etdik və qaydalar barədə danışdıq. Şərurda təşkil olunan kursun son günlərində isə məşqçilərə videosüjetlərlə qaydalar göstəriləcək və onlarla müzakirələr aparılacaq. Onu demək istəyirəm ki, bu kateqoriyada məşqçilərin qaydaları öyrənməsi çox yaxşı haldır. Çünki istər futbolçular, məşqçilər, istərsə də hakimləri birləşdirən bir vasitə var – oyun qaydaları. Bu qaydalar hər kəs bilərsə, o zaman meydanda oyun vaxtı etirazlar da az olar. Kateqoriyalara bu dərslərin salınması müsbət haldır. Çünki hər il qaydalar dəyişir, yeni qərarlar qəbul edilir. Məşqçilərin də bunları bilməsi mütləqdir. Çünki onlar da öz növbələrində rəhbərlik etdikləri komandaların futbolçularına bunları çatdırırlar. Hazırda bütün klublar Hakimlər Komitəsinin üzvləri ilə birgə çalışır və futbolçular, yeni məşqçiliyə addım atanlar maarifləndirilir. Kursun burada təşkil olunması, eyni zamanda gənc məşqçilərin dəvəti Naxçıvan Futbol Federasiyası ilə AFFA-nın gördüyü müsbət işlərin bəhrəsidir. İnanırıq ki, gələcəkdə bu istiqamətdə aparılan işlər daha geniş vüsət alacaq".

**✍ Ceyhun MƏMMƏDOV**

## "880 illik dəyər – Nizaminin xəmsəsi" adlı konfrans

Konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açıb. O bildirib ki, dahi şair və mütəfəkkir



Nizami Gəncəvinin anadan olmasının 880 illiyinin tamam olması münasibətilə dövlət başçısı İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib. Rektor Nizami Gəncəvi yaradıcılığı, onun zəngin irsi haqqında qısa məlumat verərək muxtar respublikada böyük Azərbaycan klassikinin 880 illiyinin silsilə tədbirlərlə qeyd olunacağını diqqətə çatdırıb.

Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru Sədaqət Həsənova bildirib ki, Nizami Gəncəvi yaradıcılığı yalnız Azərbaycan ədəbiyyatı üçün yox, həm də dünya ədəbiyyatı üçün olduqca böyük əhəmiyyətə malikdir.

Konfransda dosent Əli Həşimlinin "Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi" mövzusunda çıxışı dinlənilib.

Qeyd edək ki, konfrans öz işini 5 mart tarixədək davam etdirəcək.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Magistraturaya qəbul imtahanı olub

*Ötən bazar günü Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı keçirib.*

İmtahan respublikanın 7 şəhər və rayonunda – Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə, 81 imtahan binasında aparılıb. İmtahan eyni vaxtda – saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. Qəbul imtahanı təlimata uyğun şəkildə keçirilib, bakalavrların öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda iştirak üçün 19 min 885 bakalavr ərizə təqdim edib ki, onlardan 18 min 139 nəfəri Azərbaycan bölməsi, 1746 nəfəri rus bölməsi üzrə imtahan verib. İmtahanın idarə olunmasına 81 ümumi imtahan rəhbəri, 231 imtahan rəhbəri, 1863 nəzarətçi-müəllim, 170 buraxılış rejimi əməkdaşı cəlb olunub.

Naxçıvan Muxtar Respublikasında imtahan 3 binada, 59 zalda təşkil edilib, 679 nəfər bakalavr imtahan verib. İmtahanın idarə olunmasına 3 buraxılışa məsul əməkdaş, 9 rəhbər, 71 nəzarətçi cəlb edilib.

İmtahan nəticələrinin yaxın günlərdə elan edilməsi nəzərdə tutulur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**


## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir:*

***I. Dekan vəzifələri:***
1. Pedaqoji fakültənin dekanı
2. Təbiət və incəsənət fakültəsinin dekanı

***II. Kafedra müdiri vəzifələri:***
1. Ali riyaziyyat və informatika kafedrasının müdiri
2. Xarici dillər və tədrisi metodikası kafedrasının müdiri

***Qeyd:*** Fakültə dekanı və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***II. Kafedralardakı digər vəzifələr:***
*1. Azərbaycan dili və ədəbiyyatı kafedrası üzrə:*
– Dosent – 2 yer (hər biri 1 ştat)
*2. Pedaqogika və psixologiya kafedrası üzrə:*
– Baş müəllim – 1 yer (1 ştat)
*3. İncəsənət kafedrası üzrə:*
– Dosent – 1 yer (1 ştat)
– Dosent – 2 yer (hər biri 0,5 ştat)
*4. Ali riyaziyyat və informatika kafedrası üzrə:*
– Baş müəllim – 1 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2,***
***Naxçıvan Müəllimlər İnstitutu,***
***Rektorluq***
***Əlaqə: 545-32-02***



***İtmişdir***

Fərzəliyev Mürsəl Həsən oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.



**ŞƏRQ *qapısı***

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000,***
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 199**